Demokratik və şəffaf seçki ənənəsinin bariz ifadəsi

Yanvarın 29-da ölkəmizdə yerli özünüidarəetmə orqanı olan bələdiyyələrə seçkilər keçirilib. 118 seçki dairəsi üzrə 5846 məntəqədə seçicilər öz konstitusion hüquqlarından istifadə edərək 685 bələdiyyə üzrə 8071 namizədə səs veriblər. 70 625 yerli müşahidəçi seçkilərin gedişatını izləyib.

Səbail rayonu

7 saylı Səbail seçki dairəsinin sədri Cahangir Məmmədov bildirdi ki, seçki prosesində seçici fəallığı müşahidə olunur. Vətəndaşlar məntəqəyə gələrək səsvermə hüquqlarından istifadə edirlər, seçicilərin rahat və maneəsiz səs vermələri üçün zəruri şərait yaradılıb. 2, 9, 10, 11, 13, 16, 17, 19, 20, 24, 26, 32, 38 saylı məntəqələrdə veb-kameralar quraşdırılıb. Nəzarət qaydalarına tam əməl edilir və proses şəffaf şəkildə həyata keçirilir. Heç bir qanun pozuntusu və ya şikayət qeydə alınmayıb. Məntəqələrdə sakit və nizamlı seçki mühiti təmin olunub.

7 saylı Səbail seçki dairəsinin 3 saylı seçki məntəqəsinin sədri Xanlar Fərhadov qeyd etdi ki, məntəqə səhər saat 8-dən fəaliyyətə başlayıb. Ümumilikdə məntəqədə 1270 seçici qeydiyyatdan keçib və seçkilərdə 406 nəfər iştirak edib.

Vətəndaşlar heç bir maneə ilə üzləşmədən öz namizədinə səs veriblər. Ümumilikdə dairədə 53053 seçici qeydiyyatdan keçib və seçkilərdə 19593 nəfər iştirak edib.

Seçicilərdən Quliyev Tural Ələsgər oğlu səsvermə prosesinin rahat və qaydasında təşkil olunduğunu, seçicilərin sərbəst şəkildə öz iradələrini ifadə etmələri üçün bütün lazımi şəraitin yaradıldığını bildirdi.

Müşahidəçi Ramilə Muradova seçkilərin tam şəffaf şəraitdə keçirildiyini dedi: "Seçki prosesi qaydalara uyğun şəkildə həyata keçirilir. Səhər saatlarında seçici fəallığı nisbətən az olsa da, günortaya doğru məntəqələrdə canlanma müşahidə olunub. Vətəndaşlar maneəsiz şəkildə məntəqələrə gələrək seçkilərdə iştirak edirlər. Həmçinin səsvermə prosesinin şəffaflığına nəzarət etmək üçün bütün zəruri tədbirlər görülüb, heç bir qayda pozuntusu qeydə alınmayıb".

7 saylı Səbail seçki dairəsinin 5 saylı seçki məntəqəsinin sədri Afaq Vəliyeva bildirdi ki, səsvermə prosesi şəffaf, ədalətli və qanunvericiliyə tam uyğun şəkildə keçirilir. Heç bir qanun pozuntusu və ya müdaxilə halları qeydə alınmayıb. Məntəqəyə gələn vətəndaşlar rahat, təhlükəsiz və maneəsiz şəkildə səsvermədə iştirak edirlər. Məntəqə üzrə 175 nəfər seçki prosesində iştirak edib.

Vətəndaşlardan Sevinc Höcətova səsvermə prosesinin şəffaf təşkil olunduğunu bildirərək, iştirakçılar üçün hər cür şəraitin yaradıldığını vurğulayıb. O qeyd edib ki, hər kəs öz seçimini sərbəst və maneəsiz şəkildə həyata keçirə bilib.

Nəsimi rayonu

23 saylı Nəsimi-Səbail seçki dairəsinin 13 saylı məntəqəsində də seçki həyəcanı hiss olunub. Burada ümumilikdə 1434 seçici qeydiyyata alınıb, onlardan 10 nəfəri səhhətinə görə evdə səsvermə hüququndan yararlanıb. Seçki məntəqəsinə 1362 seçki bülleteni təqdim edilib. Saat 16:00-dək 450 nəfər seçici səsvermədə iştirak edib. Bu dairə üzrə 34 namizəd mübarizə aparıb. Seçki prosesinin gedişinə nəzər saldıqda, artıq səhər saatlarında yüksək seçici fəallığı müşahidə edilib. Bu isə cəmiyyətin seçkilərə olan marağının və demokratik institutlara inamının göstəricisidir. Qeyd edək ki, Ombudsman Səbinə Əliyeva da 23 saylı Nəsimi-Səbail seçki dairəsinin 13 saylı seçki məntəqəsində səs verib. S.Əliyeva jurnalistlərə açıqlamasında qeyd edib ki, gün ərzində Ombudsman və Aparatın əməkdaşları müxtəlif qapalı müəssisələrdə, hərbi hissələrdə, penitensiar xidmət müəssisələrində müşahidəçi qismində iştirak edəcək. Uzun illərdir Ombudsmanın Azərbaycanda keçirilən seçkiləri müşahidə etdiyini vurğulayan S.Əliyeva məntəqələrdə əlilliyi olan şəxslərin seçki prosesində iştirakının təmin olunmasını daim diqqətdə saxladıqlarını bildirib.

23 saylı dairənin 3 saylı məntəqəsində də seçici fəallığı müşahidə edilib. Səhər saatlarında artıq 1407 seçicidən 74-ü öz vətəndaşlıq borcunu yerinə yetirib. Səyyar qutular üçün hər hansı müraciət qeydə alınmayıb ki, bu da seçki məntəqəsində şəraitin əlverişli və rahat olduğunu göstərir. Günün irəliləyən saatlarında seçki prosesi daha da dinamikləşib. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova da həmin məntəqədə qızı ilə birgə səsvermədə iştirak edib. Qeyd edək ki, 23 saylı Nəsimi-Səbail seçki dairəsi üzrə seçici fəallığı ümumilikdə 26,92 faiz olub.

22 saylı Nəsimi ikinci seçki dairəsinin 6 saylı seçki məntəqəsinin sədri Elşən Mirvələdov bildirib ki, seçki məntəqəsində ümumilikdə 1274 nəfər seçici qeydə alınıb. Onlardan 12 nəfəri evdə səs verib. Saat 10:00-a qədər artıq 94 nəfər seçki prosesində iştirak edib. 16:00-da isə dinamiklik artıb və 340 nəfər seçkidə səs verib. Onun sözlərinə görə, məntəqədə 10 nəfərdən çox yerli müşahidəçi seçkilərin keçirilməsini izləyiblər.

Nizami rayonu

Nizami rayon 25 saylı ikinci seçki dairəsinin seçki komissiyasının sədri Heydər Vəliyev məlumat verib ki, dairə üzrə 34 məntəqə fəaliyyət göstərir, ümumi seçici sayı 48474 nəfərdir, 10 məntəqədə veb-kameralar quraşdırılıb. Saat 19:00-a olan məlumata əsasən, bələdiyyə seçkilərində ümumilikdə 13117 nəfər səs verib.

17 saylı seçki məntəqəsinin sədri Sevinc Bayramova seçici fəallığının yüksək səviyyədə olduğunu bildirib. Qeyd edib ki, məntəqə üzrə ümumi seçici sayı 1472 nəfərdir, 11 müşahidəçi səsvermə prosesini izləyir. 2 seçiciyə səyyar xidmət göstərilib. Səsvermədə iştirak edənlər 21 namizəddən 19 nəfərə səs veriblər.

18 saylı seçki məntəqəsinin sədri Vahid Bayramov qeyd edib ki, ümumi seçici sayı 1496 nəfərdir, onlardan 4 nəfəri səhhəti ilə əlaqədar səyyar səsvermə xidmətindən istifadə edib. Prosesi izləyən 7 müşahidəçi bütün qaydalara riayət olunmaqla vətəndaşların məntəqəyə gələrək tam demokratik şəraitdə səsvermə hüququndan istifadə etdiklərini təsdiqləyib.

19 saylı seçki məntəqəsinin sədri Maral Seydəliyeva vurğulayıb ki, ümumi seçici sayı 1352 nəfərdir, səhhətində problemlə bağlı 3 nəfərə səyyar səsvermə xidməti göstərilib, 12 nəfər müşahidəçi prosesi izləyib.

7 saylı seçki məntəqəsinin sədri Zülfiyyə Yunusova bildirib ki, ümumi seçicilərin sayı 1362 nəfərdir, 14 müşahidəçi vətəndaşların səsvermə prosesini izləyib.

24 saylı Nizami birinci seçki dairəsinin seçki komissiyasının sədri Fəridə Rzayeva deyib ki, ərazi üzrə 36 seçki məntəqəsindən 10-da veb-kameralar quraşdırılıb, ümumi seçicilərin sayı 49347 nəfərdir. Saat 19:00-a olan məlumata görə, ümumilikdə 12975 nəfər səs verib. 11 saylı seçki məntəqəsinin sədri Mətanət Cabbarova məntəqə üzrə 1263 seçicinin qeydiyyatdan keçdiyini deyib. 10 yerli müşahidəçi səsvermə prosesini izləyib.

Nərimanov rayonu

19 saylı Nərimanov I seçki dairəsinin 33 saylı məntəqəsinin sədri Məhəmməd Kərimov məntəqə üzrə seçki siyahısında 1274 nəfərin olduğunu bildirib: "Məntəqə üzrə 33 nəfər bələdiyyə üzvlüyünə namizədliyini verib. Nərimanov rayon bələdiyyəsinə ümumilikdə 19 nəfər bələdiyyə üzvü seçilməlidir. Məntəqə üzrə ən gənc seçici Əliyev Hüseyin Ələddin oğludur. Ən yaşlı seçimiz isə 1941-ci il təvəllüdlü Məmmədova Münəvvər Ağalar qızıdır. Azərbaycan Respublikasının Əməkdar artisti Kübra Əliyeva da bizim məntəqədə səs vermişdir. Seçici fəallığı 30 faizdən artıqdır. YAP-ı təmsil edən müşahidəçi Nərgiz Muradova seçki prosesinin uğurla keçdiyini, heç bir qanun pozuntusuna rast gəlmədiyini qeyd edib.

Nərimanov rayon 19 saylı seçki dairəsinin sədri Azad Nəbiyev dairə üzrə ümumi seçici sayının 48 619 nəfər olduğunu bildirib: "31 nəfər namizədimiz var. Seçki fəallığı qənaətbəxşdir. Bir nəfərə daşınan qutu göndərilib".

19 saylı Nərimanov I seçki dairəsinin 16 saylı məntəqəsinin sədri Nihal Hacıyeva məntəqə üzrə seçici aktivliyinin yüksək olduğunu diqqətə çatdırıb: "Seçicilərin əksər hissəsi artıq səsvermə prosesində iştirak edib. Məntəqə üzrə ümumilikdə 31 namizəd qeydə alınıb. Onlardan sadəcə 19 nəfəri seçiləcək. Heç bir daşınan qutu göndərilməyib. Ən yaşlı seçicimiz 1936-cı il təvəllüdlüdür, 89 yaşı var. Millət vəkilləri Hikmət Məmmədov, Samir Vəliyev və Elçin Quliyev prosesi izlədilər". Həmin məntəqənin müşahidəçisi Xuraman Əliyeva da seçkilər başlayan andan etibarən fəallığın yüksək səviyyədə olduğunu bildirib: "Seçicilər həvəslə səsvermədə iştirak edirlər. Bununla yanaşı, məntəqədə beynəlxalq müşahidəçilər də seçki prosesini izləyirdilər. Onlar seçkinin demokratik və şəffaf şəkildə keçdiyini vurğuladılar.

Suraxanı rayonu

30 saylı Suraxanı Birinci Seçki Dairəsində keçirilən seçkilər həm təşkilati, həm də şəffaflıq baxımından nümunəvi oldu. Seçki komissiyasının sədri Nadir Tağıyev prosesin qanun çərçivəsində baş tutduğunu bildirərək qeyd etdi ki, seçkilərin gedişatı tam nəzarətdə saxlanılıb, heç bir qanun pozuntusu qeydə alınmayıb.

"Dairə üzrə 2-si qapalı, 35-i isə açıq məntəqələr olmaqla ümumilikdə 37 seçki məntəqəsi fəaliyyət göstərir. Seçkilərin gedişatına nəzarət etmək xüsusilə, seçkilərin şəffaflığını təmin etmək üçün kameralar quraşdırılıb və proses tam nəzarətdə saxlanılıb. Bütün texniki məsələlər öncədən həll edilmişdi ki, bu da seçkilərin şəffaf şəkildə keçirilməsinə imkan yaradıb. Seçki dairəsi üzrə ümumi seçici sayı 47,192 nəfər təşkil edib. Ayrı-ayrı məntəqələrdə də yüksək seçici fəallığı müşahidə edilib".

23 saylı seçki məntəqəsində qeydə alınan 1421 nəfər seçicidən 404-ü səsvermədə iştirak edib. Burada 12 nəfər müşahidəçi seçki prosesini diqqətlə izləyib. Məntəqə sədri Gülnarə Mehdiyeva prosesin qanun çərçivəsində və şəffaf keçdiyini bildirib.

22 saylı seçki məntəqəsində isə 1017 nəfər seçicidən 289-u səsvermə hüququndan istifadə edib. Burada 14 müşahidəçi iştirak edib. Məntəqənin sədri Mayis Mirzəyev bildirib ki, seçkiyə gələn vətəndaşlar heç bir maneə ilə üzləşməyiblər, seçki prosesi sakit və qaydalara uyğun şəkildə keçirilib.

24 saylı seçki məntəqəsində isə 807 nəfər seçici qeydə alınıb. Onlardan 229-u səsvermədə iştirak edib. Məntəqə sədri Rahidə Quliyeva qeyd edib ki, bütün seçki məntəqələrində olduğu kimi, burada da şəffaflıq tam təmin olunub. Seçkiyə nəzarət edən 12 müşahidəçi prosesin qaydalara uyğun şəkildə həyata keçirildiyini bildiriblər.

Xəzər rayonu

12 saylı Xəzər Birinci Dairə Seçki Komissiyasının sədri Mütəllim Balaqardaşov qeyd etdi ki, bütün məntəqələrdə seçici fəallığı yüksəkdir. Dairə üzrə 37 məntəqədə 47.009 seçici qeydə alınıb. Saat 17:00-a olan məlumata görə, 12 min 996 nəfər səsvermədə iştirak edib ki, bu da 27 faiz təşkil edir.

12 saylı Xəzər Birinci Dairə Seçki Komissiyasının 2 saylı seçki məntəqəsinin sədri Vera Kuduryaşova bildirdi ki, səs verməyə gələnlərin əhvali-ruhiyyəsi olduqca yüksəkdir: "Məntəqəmizdə seçicilər üçün hər cür şərait yaradılıb. Hər bir seçici sərbəst şəkildə istədiyi namizədə səs verir. Səsvermə müddətində heç bir qanun pozuntusuna rast gəlinməyib. 1377 seçicimiz var. Saat 17:00-a kimi seçicilərimizin 382 nəfəri məntəqəyə gələrək öz seçki hüququndan istifadə edib".

Dairə üzrə 3 saylı seçki məntəqəsində də əsl qələbəlik idi. Seçicilər növbəli şəkildə məntəqəyə daxil olurdular. Məntəqənin sədri Təhmasib Məmiyev qeyd etdi ki, əvvəlcədən hazırlıq işlərinin görülməsinin nəticəsidir ki, bu gün məntəqədə heç bir problem yaşanmır, seçici fəallığı müşahidə edilir. 1418 seçicimizdən saat 17:00 kimi 382 nəfəri səs verib ki, bu da məntəqə üzrə 28 faiz təşkil edir.

Məntəqədə olarkən ilk dəfə səs verən Leyla Əhmədzadə ilə həmsöhbət olduq:

- İlk dəfədir ki, səsvermədə iştirak edirəm. Qalib xalqın gənc vətəndaşı kimi fəxarət hissi keçirirəm. Öz konstitusion hüququmdan istifadə edərək layiqli namizədə səs verdim. Biz gənclər seçkilərdə iştirak etməklə öz gələcəyimizi müəyyənləşdirmiş oluruq. Bu, bizim vətəndaşlıq borcumuzdur.

13 saylı Xəzər İkinci Seçki Dairəsində 54 min 877 seçici 41 seçki məntəqəsində səs verir. Saat 15:00-a kimi dairə üzrə 12.721 nəfər səsvermədə iştirak edib. 3 saylı məntəqənin sədri Zahirə Abdullayeva bələdiyyə seçkilərinin demokratik və şəffaf şəkildə keçirilməsi üçün hər cür şərait yaradıldığını qeyd etdi: "Görürsünüz, seçicilər necə aktivdirlər. 1485 seçicimizin inanıram ki, hamısı öz səs hüququndan istifadə edəcəklər. 29 namizəd 17 yer uğrunda mübarizə aparır".

4 saylı məntəqənin sədri Ağayar Əzizov seçkilərin mütəşəkkil keçdiyini, seçici fəallığının yüksək olduğunu qeyd etdi. Bildirdi ki, məntəqədə seçki prosedurlarına ciddi əməl olunur. 1475 seçicimizdən çoxu öz seçimini edib. Seçki prosesini müşahidə edən müxtəlif təşkilatların nümayəndələri bildirdilər ki, seçkilərə start veriləndən heç bir qanun pozuntusuna rast gəlinməyib.

(davamı 6-cı səhifədə)

Demokratik və şəffaf seçki ənənəsinin bariz ifadəsi

(əvvəli 5-ci səhifədə)

Qaradağ rayonu

Bələdiyyə seçkiləri ilə əlaqədar ölkəmizin hər yerində olduğu kimi, əhalisi 136002 nəfər olan Qaradağ rayonunda da seçki ab-havası, fəallıq hiss olunurdu. Rayonda seçki keçirilən bütün məntəqələrdə qaynar mühit, sağlam əhvali-ruhiyyə göz oxşayırdı. Əhalinin sıx yaşadığı yerlərdə, mən-

təqələrin həyətlərində seçkilərə çağırışı əks etdirən plakatlar, bələdiyyə üzvlüyünə namizədlərin şəkilləri asılmışdı.

11 saylı Binəqədi-Qaradağ Seçki Dairəsinin 24 saylı məntəqəsində seçici aktivliyi müşahidə olunurdu. Məntəqənin sədri Jalə Qədirova ilə görüşüb fikirlərini öyrəndik. Sədr bildirdi ki, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpası fonunda ölkəmizdə keçirilən bütün seçkilər ayrı-ayrılıqda xüsusi əhəmiyyət kəsb edir. Məhz bunun nəticəsidir ki, səhər saatlarından insanlar səs vermək üçün məntəqəyə yaxınlaşır, tam şəffaf və sərbəst şəkildə səsver-

mə hüquqlarından istifadə edirlər. Məntəqə üzrə 897 nəfər seçicimiz var, 15 yer üzrə 36 namizəd mübarizə aparır.

Məntəqədə müşahidəçi qismində iştirak edənlər 288 saylı orta məktəbin riyaziyyat müəllimi Aytəkin Bəşirova və Prezident yanında Dövlət İdarəçilik Akademiyasının siyasi idarəetmə fakültəsinin 3-cü kurs tələbəsi Xalid Babazadə səhər saat 07:45-dən məntəqəyə gəldiklərini qeyd edərək seçici aktivliyinin olduğunu və heç bir neqativ halın baş vermədiyini bildirdilər.

11 saylı Binəqədi-Qaradağ Seçki Dairəsinin 43 saylı məntəqəsində də seçici fəallığı müşahidə olunurdu. Məntəqənin sədri Aygün Hüseynovanın sözlərinə görə, məntəqə üzrə 1326 seçicidən günorta saatlarına kimi 219 nəfər səs vermişdi.

11 saylı Binəqədi-Qaradağ Seçki Dairəsinin 25 saylı məntəqəsində seçicilərin fəallığının şahidi olduq. Məntəqənin sədri Xatirə Namazova bildirdi ki, insanlar böyük həvəslə məntəqəmizə üz tuturlar. Saat 15:00-a kimi məntəqə üzrə 1326 seçicidən 400-ə yaxını səs verib.

37 saylı Qaradağ Dairə Seçki Komissiyasının sədri Azər Ələsgərovla söhbət edərkən o bildirdi ki, ölkəmizdə seçkilərin şəffaf, demokratik şəkildə keçirilməsi, seçicilərin istədikləri namizədə səs vermələri üçün bütün dairə və məntəqələrdə hər cür şərait yaradılıb. O cümlədən Qaradağ rayonunda da bu prosesə ciddi hazırlıq işləri görülüb.

Komissiya sədri saat 17:00-a olan məlumatı bildirərkən qeyd etdi ki, dairə üzrə 37 daimi məntəqədə 45933 seçici, 3 müvəqqəti yaradılan məntəqədə isə 2735 seçicimiz var. Ümumilikdə seçkilərdə iştirak edəcək 48668 seçicidən 12484 nəfəri artıq səs vermişdir. Əminliklə deyə bilərik ki, seçkilər tam şəffaf və demokratik şəkildə keçirilir.

Sumqayıt-Abşeron-Qaradağ

47 saylı Sumqayıt-Abşeron-Qaradağ seçki dairəsinin sədri İlqar Allahverdiyev bildirib ki, vətəndaşlar öz konstitusion hüququndan istifadə edərək səhər saatlarından məntəqələrə üz tutub, öz namizədlərinə səs veriblər. Dairə səd-

ri qeyd edib ki, bu bələdiyyə seçkiləri əvvəlki bələdiyə seçkilərindən aktivliyinə görə fərqlənir. O, həmçinin budəfəki bələdiyyə seçkilərinin müstəqillik tarixində bir ilk olduğunu da bildirib: "Ötən il keçirilən prezident və parlament seçkiləri kimi, builki bələdiyyə seçkiləri də ərazi bütövlüyümüz və suverenliyimiz tam bərpa edildikdən sonra ilk dəfədir ki, keçirilir. Bu da tariximizdə parlaq səhifələrdən biridir. Sədrlik etdiyim dairə üzrə 43 məntəqə fəaliyyət göstərir. 6 bələdiyyə üzrə 144 namizəd mübarizə aparır. Seçici fəallığı normaldır. Ümumi seçici sayı 52 min 99 nəfərdir. İlk dəfə səsverənlər 295, 80-100 yaşarası isə 334 nəfərdir. Yeddi məntəqə veb-kamera ilə təchiz olunub". Qeyd edək ki, yekun nəticəyə əsasən seçkilərdə seçicilərin 36 faizi yəni 22240 nəfəri iştirak edib.

47 saylı Sumqayıt-Abşeron-Qaradağ seçki dairəsinin tərkibində Aşağı Güzdək qəsəbəsində fəaliyyət göstərən 27 saylı məntəqədə də seçkilər şəffaf və demokratik şəkildə keçirilib. Bunu məntəqənin sədri Xuraman Kərimova bildirib. O qeyd edib ki, daşınan qutudan istifadə edilməyib. Məntəqə üzrə 1429 nəfər seçici qeydiyyata alınıb. Ümumilikdə 258 nəfər səsvermədə iştirak edib. Heç bir qayda pozuntusuna rast gəlinməyib.

47 saylı Sumqayıt-Abşeron-Qaradağ seçki dairəsinin tərkibində fəaliyyət göstərən 25 saylı məntəqə də səhər saatlarından etibarən seçicilərini qəbul edib. Qeyd edək ki, 1354 nəfər seçicidən 245 nəfər səsvermə prosesində iştirak edib. Demokratik prinsiplər əsasında baş tutan seçkilərdə qayda pozuntusuna rast gəlinməyib. Məntəqə sədri Nəcibə Zeynalova bildirib ki, günün ilk yarısı seçici aktivliyi daha çox olub. Seçicilər rahat şəkildə öz namizədlərinə səs veriblər. 2 nəfər gənc ilk dəfə səs verib. Bu da ölkəmizdə seçki ənənəsinin ilbəil daha da təkmilləşdiyini göstərir.

Pirallahı rayonu

14 saylı Xəzər-Pirallahı Dairə Seçki Komissiyasının (DSK) sədri İmran Qəmbərovun sözlərinə görə, 42 seçki məntəqəsini əhatə edən dairədə seçicilərin ümumi sayı 50485 nəfərdir. Məntəqələrin 9-da veb-kameralar quraşdırılıb. Seçkiləri müşahidə etmək üçün də lazımi şərait yaradılıb: "Dairə üzrə 93 namizəd qeydə alınıb. Bələdiyyə seçkilərinə maraq olduqca böyükdür. İndiyə qədər keçirilən bütün seçkilər kimi, budəfəki bələdiyyə seçkiləri də ölkəmizdə demokratiyanın inkişafı is-

tiqamətində atılan növbəti addımdır. Vətəndaşlarımız bu vacib prosesdə fəal iştirak edirlər. Mütəmadi olaraq DSK-nın əhatə olunduğu bütün məntəqələrlə əlaqə saxlayıram. Hər bir məntəqədən gələn xəbər qaneedicidir. Çünki seçicilərimiz yüksək fəallıq nümayiş etdirirlər. Düşünürəm ki, bunun başlıca səbəbi əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasətin xalqımız tərəfindən layiqincə dəyərləndirilməsindədir. Yerli özünüidarəetmə orqanlarının ölkədə aparılan abadlıq-quruculuq işlərində yaxından iştirak etməsində maraqlı olan vətəndaşlarımız bələdiyyə seçkilərində yüksək fəallıq nümayiş etdirirlər".

14 saylı Xəzər-Pirallahı Seçki Dairəsinin 33 saylı seçki məntəqəsinin sədri Elnur Bayramov bildirdi ki, bələdiyyə seçkiləri ilə bağlı səsvermə demokratik, tam şəffaf şəraitdə keçirilib: "Seçkiyə hazırlıq yüksək səviyyədədir. 1176 seçici qeydiyyatdan keçib. Fəallıq qənaətbəxşdir. 13 bələdiyyəyə üzvlüyünə 23 namizəd iştirak edir. 10 nəfər müşahidəçi səsverməni izləyir. Qeyd edim ki, yaşı 80-100 arası 6 seçicimiz var. 9 nəfər ilk dəfə səs verir". Seçicilərdən Failə Zeynalova seçkinin şəffaf keçirildiyini vurğuladı.

14 saylı Xəzər-Pirallahı Seçki Dairəsinin 34 saylı məntəqəsində də seçicilər yüksək fəallıq nümayiş etdirdilər. Məntəqənin sədri Zəmanə Səmədova bildirdi ki, vətəndaşlar saat 08:00-dan etibarən səs vermək üçün məntəqəyə axın edirlər: "Seçki məntəqəsində 1222 nəfər seçici var. İlk dəfə səs verən bir nəfərdir. Daşınan qutu ilə bağlı müraciət olmayıb. Seçkilər tam şəffaf şəraitdə keçirilir. Hər şey yüksək səviyyədə təşkil olunub".

Ümumi olaraq Dairə Seçki Komissiyasının sədri İmran Qəmbərovun qeyd etdi ki, seçkinin yekununda bütün məntəqələr üzrə seçicilərin 28,62 faizi, yəni 39764 nəfəri seçkilərdə iştirak edib.

Xətai rayonu

35 saylı üçüncü seçki dairəsinin sədri Gülnarə Salmanova seçkilərin yüksək təşkilatçılıqla, tam şəffaf və ədalətli şəkildə baş tutduğunu bildirib: "Bütün məntəqələrdə seçicilərin sərbəst şəkildə öz iradələrini ifadə etmələri üçün lazımi şərait yaradılıb, qanunvericiliyin tələblərinə tam əməl olunur. Səsvermə prosesi sakit və şəffaf şəkildə həyata keçirilir. Müşahidəçilər və media nümayəndələri üçün imkan yaradılıb.

Dairə üzrə 24 saylı seçki məntəqəsinin sədri İradə Rəsulova seçkilərin qanunvericiliyə uyğun, ədalətli və tam şəffaf şəkildə keçirildiyini dedi: "Məntəqə üzrə 898 seçici var. Günorta saatlarında onların əksəriyyəti səsvermə hüququndan istifadə edib. Məntəqədə veb-kamera quraşdırılıb. Hər bir seçicinin səsvermə hüququ tam təmin olunub, heç bir qanun pozuntusuna yol verilməyib. Seçkilər yüksək təşkilatçılıqla, ədalətli və demokratik prinsiplərə tam uyğun şəkildə keçirilir".

Müşahidəçi Sadıq Sadıqov qeyd edib ki, seçkilər qanunvericiliyə tam uyğun şəkildə, şəffaf və ədalətli keçirilir. Seçki məntəqəsində heç bir qanun pozuntusu, təzyiq və ya seçki prosesinə müdaxilə halları müşahidə olunmayıb. Komissiya üzvləri öz vəzifələrini yüksək peşəkarlıqla yerinə yetirirlər. Müşahidəçilər üçün hər cür şərait təmin olunub, seçki prosesini izləmək imkanımız oldu. Hər hansı bir maneə və ya qeyri-qanuni müdaxilə ilə rastlaşmadıq".

35 saylı Xətai Üçüncü Seçki Dairəsinin 29 saylı seçki məntəqəsinin sədri Səfər Cəfərov bildirib ki, proses şəffaf, ədalətli və qanunvericiliyə uyğun şəkildə keçir: "Heç bir qanun pozuntusu və ya müdaxilə halları qeydə alınmayıb. Seçki məntəqəsinə gələn hər bir vətəndaş rahat, şəkildə səs verir. 959 seçicimiz var ki, müşahidəçilərin seçki prosesini izləmələri üçün tam şəffaflıq təmin edilib".

Yasamal rayonu

Yasamal rayonunda da bələdiyyə seçkilərindəki fəallıq qənaətbəxş olub. 15 saylı Yasamal Birinci Dairə Seçki Komissiyasının sədri Cumar İsayev bildirdi ki, 38 məntəqə üzrə 51 min seçicimiz var, seçici fəallığı normaldır. Seçkilərdə ilk dəfə səs verən gənclərin sayı 3 nəfərdir.

17 saylı Yasamal üçüncü seçki dairəsinin 15 saylı seçki məntəqəsində də seçicilərin aktivliyi müşahidə olunurdu. Məntəqənin sədri Şərafət Feyzullayeva səsvermə prosesi barədə məlumat verərək dedi ki, məntəqə üzrə ümumilikdə 1245 seçici var və onlardan əksəriyyəti seçkidə iştirak edib. Daşınan qutulardan istifadə olunmayıb. Məntəqədə prosesi izləmək üçün kifayət qədər müşahidəçi var.

16 saylı Yasamal ikinci seçki dairəsinin 24 saylı seçki məntəqəsində də seçki prosesi şəffaf, aktiv şəkildə keçirilib. Məntəqə sədri Arzu Xəlilzadə bildirdi ki, məntəqə üzrə 978 nəfər seçici var və gün ərzində aktivlik müşahidə olunub. Ən yaşlı seçicinin 87, ən gənc seçicinin isə 18 yaşı var. 24 saylı seçki məntəqəsində də daşınan qutu ilə bağlı müraciət olunmayıb. Qeyd edək ki, Yasamal rayonu üzrə 15 saylı seçki dairəsində 51 min seçicidən 15867 seçkidə iştirak edib.

Sabunçu rayonu

Seçki prosesinin demokratik, şəffaf və qanun çərçivəsində keçirilməsi cəmiyyətin diqqət mərkəzindədir. 26 saylı Sabunçu birinci seçki dairəsinin sədri Hüseynqulu Əliəsgərov bildirib ki, seçki prosesində seçici fəallığı müşahidə edilir. Seçki məntəqələrində müvafiq şərait yaradılıb, seçicilər öz iradələrini sərbəst ifadə edirlər. Sədr, həmçinin vurğulayıb ki, dairə üzrə 38 seçki məntəqəsi mövcuddur. Dairə üzrə 15 min 890 seçici səsvermə hüququndan istifadə edib.

Seçkinin şəffaf keçməsi üçün 6, 8, 13, 17, 23, 25, 29, 32 saylı məntəqələrdə veb-kameralar quraşdırılıb. Bu addım seçki prosesinə ictimai nəzarəti genişləndirmək və mümkün pozuntuların qarşısını almaq məqsədi daşıyır. Hər kəs internet vasitəsilə məntəqələrdəki vəziyyəti canlı izləyə bilər ki, bu da cəmiyyətdə seçki prosesinə olan inamı artıran əsas amillərdəndir.

Bundan əlavə, səyyar seçki qutusu bir seçicinin ünvanına çatdırılıb. Həmçinin dairə üzrə 18 nəfər ilk dəfə səsvermə hüququndan istifadə edib. Dairənin ən yaşlı seçicisi isə 100 yaşlı Sarıyeva Tamaşa Yunis qızıdır.

26 saylı Sabunçu birinci seçki dairəsinin 29 saylı seçki məntəqəsinin sədri Ramiz Osmanov məntəqə üzrə 1496

seçicinin olduğunu deyib. Məntəqə sədri, həmçinin qeyd edib ki, bu seçki kampaniyasında şəffaflıq tam təmin edilib və hər bir seçicinin hüquqlarına hörmətlə yanaşılıb. Bununla da cəmiyyətin seçki prosesinə olan etimadı daha da möhkəmləndirilib. Seçki prosesi qanunvericiliyə tam uyğun şəkildə həyata keçirilir.

Sözügedən məntəqə üzrə müstəqil müşahidəçi Afət Şahmuradova bildirib ki, heç bir qanun pozuntusuna rast gəlinməyib və bütün prosedurlar tam şəffaflıq və qanunvericiliyə uyğun şəkildə həyata keçirilir. Seçki məntəqələrində təşkilati məsələlər düzgün tənzimlənib, seçicilərə rahat və təhlükəsiz şərait yaradılıb. Digər müşahidəçi, YAP üzrə təmsilçi Mədinə Əliyeva qeyd edib ki, hər bir vətəndaşın səsvermə hüququndan istifadə etməsi üçün bütün lazımi tədbirlər görülüb: "Seçki məntəqələrində müvafiq sənədlər və vasitələr vaxtında təqdim edilib və hər hansı bir problem yaranmayıb. Bütün prosedurların qanunlara tam uyğun aparılması, seçki komissiyasının və məntəqə əməkdaşlarının peşəkarlığından xəbər verir". Müşahidəçi, həmçinin seçicilərin heç bir təzyiq və ya məcburiyyət olmadan öz iradələrini sərbəst şəkildə ifadə etdiklərini vurğulayıb. Məntəqələrdə veb-kameraların quraşdırılması da prosesin şəffaflığını təmin edib.

27 saylı Sabunçu ikinci seçki dairəsinin 3 saylı seçki məntəqəsinin sədri İlahə Axundova məntəqə üzrə ümumilikdə 1437, 2 saylı seçki məntəqəsinin sədri Elmira Qiyasova isə 1348 seçiçinin qeydə alındığını, onların da böyük əksəriyyətinin öz hüququndan istifadə etdiyini bildiriblər.

Binəqədi rayonu

8 saylı Binəqədi birinci seçki dairəsinin sədri Natiq Əliyev bildirdi ki, dairə üzrə 37-si daimi, 1-i isə müvəqqəti olmaqla, ümumilikdə 38 seçki məntəqəsi fəaliyyət göstərir. Bütün seçki məntəqələrində səhər saat 08:00-dan səsvermə başlayıb. Ümumilikdə dairə üzrə 48688 seçici qeydə alınıb. Seçicilərin 927 nəfəri 80-100 yaşlı insanlar, 301 nəfəri isə ilk dəfə səs verən gənclərdir.

Bələdiyyə üzvlüyünə 33 nəfərin namizədliyi qeydə alınıb. 469 müşahidəçi qeydiyyatdan keçib. Onlardan 174 nəfəri siyasi partiya üzvləri, 295 nəfəri isə öz təşəbbüsü ilə müraciət edənlərdir.

9 saylı Binəqədi ikinci seçki dairəsinin sədri Anar Cavadov bildirdi ki, dairə üzrə 38 seçki məntəqəsi var. Dairə seçki komissiyası tərəfindən 445 müşahidəçi, 51080 seçici qeydə alınıb. 100 yaşdan yuxarı 1, ilk dəfə səs verən gənclərin sayı isə 419 nəfərdir. M.Ə.Rəsulzadə qəsəbə bələdiyyəsi üzrə 27, Binəqədi qəsəbə bələdiyyəsi üzrə 32 namizəd mübarizə aparıb.

8 saylı ikinci seçki dairəsinin 26 saylı seçki məntəqəsinin sədri Aybəniz Əliyeva 1321 seçicidən 250 nəfərinin 14:00-a kimi səs verdiyini dedi. Seçki məntəqəsinin katibləri Abbas Qurbanov, İradə Əliyeva, komissiya üzvü Aynur Məmmədova, müşahidəçi Dürdanə Babayeva vurğuladılar ki, prosses şəffaf keçirilir, heç bir qanun pozuntusu aşkarlanmayıb.

8 saylı ikinci seçki dairəsinin 27 saylı məntəqəsinin sədri Xalidə Sadıqova saat 13:30-a qədər 210 seçicinin səs verdiyini bildirdi. Seçki məntəqəsinin katibi Kəmalə Qasımova nəzərə çatdırdı ki, seçki prosesi şəffaf keçirilir.

Komissiyasının üzvü Sevinc Quliyeva, Yeni Azərbaycan Partiyasından olan nümayəndələr - Həyat Miriyeva, Sevda Mehdiyeva, Şahsənəm İmaniyeva qeyd etdilər ki, seçki tam şəffaf, demokratik qaydada keçirilir. Seçicilər azad və sərbəst şəkildə səs verirlər. Heç bir qayda pozuntusu olmayıb.

9 saylı Binəqədi ikinci seçki dairəsinin 11 saylı seçki məntəqəsinin sədri Fəxrəddin Quliyev seçkilərin tam şəffaf və demokratik qaydada keçirildiyini bildirdi.

Seçki məntəqəsinin katibləri Zülfiyyə Quliyeva, Vüsalə Ələkbərova, komissiya üzvləri Nurlana Mehdiyeva, Sevil Həsənova qeyd etdi ki, seçici aktivliyi yüksək səviyyədədir. Seçkilər MSK-nın qaydalarına uyğun təşkil edilib və şəffaf şəkildə aparılır. YAP-dan olan müşahidəçilər Nobel Mənsimov, Ərəstun Abbasov, Elşən Orucov bildirdi ki, seçki qaydalara uyğun şəkildə keçirilir.

13 saylı seçki məntəqəsinin sədri Vaqif Ələsgərov nəzərə çatdırdı ki, saat 15:00-a kimi 1371 seçicidən 330-u səs verib. Seçki məntəqəsinin katibi İradə Əmiraliyeva, komissiya üzvləri Şəhlə Təhməzova, Xuraman Ağalarova, Dursun Nəbiyev və müşahidəçi Elçin Orucov bildirdilər ki, seçici aktivliyi yüksəkdir. Prosses tam şəffaf və demokratik qaydada keçirilir. Hər bir seçici öz namizədinə sərbəst şəkildə səs verir.

Seçici Esmira Məmmədyarova qeyd etdi ki, ölkəmizdə keçirilən bütün seçkilərdə fəal iştirak edir. Bütün seçkilərdə olduğu kimi, bələdiyyə seçkilərində də seçicilərin sərbəst şəkildə səs vermələri üçün hər cür şərait yaradılıb.

"Respublika".